# ADMİU-dan reportaj: “Biz “Stanislavski sistemi”ni bilmirik!”



**Dağlar Yusif**
*teatrşünas*

Ən önəmlisi təhsildir! Təhsil, yəni ki, təlim. İnsan necə təlim görürsə, elə də yaşayır, bu təlimin istiqamət və səviyyəsindən asılı olaraq ətraf mühitə, əhatə olunduğu obyektiv aləmə münasibəti formalaşır. İnsanın təlim sisteminə təhsil deyirlər. Hər şeyin səbəbi təhsildir. Məsələn, teatr nəticədir, teatr təhsili səbəb. Götürək elə bizim Azərbaycan teatrını... nə qədər demək olar, ay başınıza dönüm, teatr deyilən şey gərəkdir ki, öz qazanında qaynamasın, çanağından ötəki dünyanı qavramağı, duymağı, ona reaksiya verməyi bacarsın. Bacarmırsa, heç olmasa, cəhd eləsin. Eləmirsə... eləyir! Özü də necə deyərlər, “eləməyə” təhsildən başlayıb. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti “kurs işləri”, “diplom tamaşaları” və nəhayət, qatrol səfərləriylə heç də peşəkar teatrlarımızdan geri qalmır, “nüvə başlıqlı” bir “AH!” çəkib onu da qeyd etməliyəm ki, bəzi məqamlarda və tez-tez “bəzi məqamlarda”, “peşəkar teatr prosesimiz”i qabaqlayır da! Bu reportaj-məqalə üçün bəhanəyə çevirdiyimiz hadisə isə Universitetin “SABAH” mərkəzinin Türkiyənin Dənizli vilayətinə təşkil etdiyi qostrol səfəridir. İki tamaşa ilə (“Hərə bir qəhrəman oldu” - müəllif Qan Turalı, quruluşçu rejissor Gümrah Ömər və “Müsyö Jordan və Dərviş Məstəli Şah” - müəllif Mirzə Fətəli Axundzadə, quruluşçu rejissor Nofəl Vəliyev) 3-cü kurs dram teatrı və kino aktyorlarının və müəllim heyətinin iştirak etdiyi Uluslararası Amatör Tiyatro Festivalı haqda əvvəlinci sözü söyləyir ADMİU-nun “Sabah” Mərkəzinin rəhbəri Bella Məmmədbəyova: “Qatıldığımız festival artıq 33-cü dəfə keçirilən Denizli Uluslararası Amatör Tiyatro Festivalı idi. Amatör, yəni ki, həvəskar. Amma bəzi tamaşaları çıxmaq şərtiylə, festival heç də “həvəskarlıq səviyyəsi”ndə deyildi. Düzdür, dərnək səviyyəsində olan tamaşalar da vardı, amma həm də olduqca kreativ ideyalara söykənən müasir tamaşalar da oynanıldı. Festivalın çox zəngin proqramı var idi. Fərqli məkanlarda - “Çatalçeşmə Oda Teatrı”nda və Konqres Mərkəzində” gündə iki tamaşa oynanılırdı.

*Bizə məlumdur ki, bundan öncə “Sabah”çılar Rusiyada QİTİS-in təşkil etdiyi MDB ölkələrinin II Beynəlxalq Teatr Festivalında çıxış ediblər. Bu isə artıq yaradıcı heyət üçün əməlli-başlı müqayisə imkanı yaradır. Maraqlıdır, əgər müqaisə etsək Azərbaycan teatrı və teatr təhsili üçün hansı mətləbləri əxz edə bilərik?.. Bu sualımızı Universitetdə səhnə danışığı fənnini tədris edən Xalq artisti Mehriban Zəki cavablandırdı:*

“Maraqlı və konkret suala görə təşəkkür edirəm. Özünüz də qeyd etdiniz, bundan öncəki səfərimiz Rusiyaya olub. Bilirsiz ki, Rusiya artıq bir əsrdir ki, öz teatr ənənəsi və düşüncəsiylə bütün dünyaya təsir göstərir, necə deyərlər, peşəkarlığın kriteriyalarını diqtə edir. Əlbəttə ki, Rusiyanın ən mötəbər təhsil ocaqlarından olan QİTİS-də festivala qatılmaq bizimçün həm böyük uğur, həm də ağır məsuliyyət idi. Düzdür, QİTİS özü bu festivala qatılmamışdı, amma bizim tamaşa, ən azından, festivala MDB ölkələrində qatılan tamaşaların heç birisində geri qalmırdı, əksinə, tələbələrimiz oynayanda mən qürur duydum ki, mənim məmləkətimin balaları heç kimdən geri qalmırlar. Amma əgər müqaisə obyekti Rusiyadırsa, etiraf etməliyəm ki, geridə olduğumuz məqamlar var. Məsələn, orada ustad dərslərində iştirak etdiyimiz zaman özüm üçün bilmədiyim, öyrənməli olduğum məqamlar, məsələlər aşkarladım, baxmayaraq ki, burda həmən fəndən dərs deyirəm. Çox yaxşı olardı ki, mən həmin “texniki vasitələri” onlardan öyrənim və tələbələrə də öyrədim. Çünki bu gün teatr sənətinin varolması biraz başqa - daha yeni prinsiplərə söykənir. Bizsə “köhnə məktəb”ə əsaslanırıq.

*- Hansı “könə məktəb”ə, Mehriban xanım... o məktəbin adı nədir?..”Stanislavskı sistemi?!*

**Mehriban Zəki:** “Qətiyyən, yox! Biz Stanislavski məktəbini bilmirik, Dağlar! Biil-miir-ik! Biz onu bilmirik və haqqında təsəvvürümüz də o qədər bəsitdir ki, elə bilirik, Stanislavski “sistemi” çıxıb səhnədə “YAAŞAAMAAQ”dan ibarətdir və guya ki, bu köhnədir. Əslində, isə bir azcıq mahiyyətinə varsaq, bu “sistem” o qədər canlı və aktualdır ki... sadəcə, dəqiqləyi ilə öyrənmək gərək. Bütün dünyada istər teatr təhsilinin, istərsə də peşəkar teatrın bünövrəsində bu “sistem” durur. Başqa istiqamətə getdim, keçim Dənizliyə... Dənizli əyalətdir. Düzdür böyük şəhərlərdən də truppalar qoşulmuşdular. Amma məsələn, Aydın Universitetinin tamaşasını heç sevmədim. Qaldı bizim tələbələrə, qayət yaxşı çıxış etdilər. Düzdür, bir az səhnənin texniki durumundan gələn qüsurlar oldu, amma bu uşaqların günahı deyildi. Baxmayaraq tələbələrimiz arasında zəifi də var, güclüsü də...amma ən önəmlisi budur ki, bu uşaqlar istənilən teatr mühitinə, istənilən səhnəyə adeptə olmağı və orda bir ansambl kimi var olmağı bacarırlar. Bir balaca əsəri bəyənmədilər (Qan Turalı, “Hərə bir qəhrəman” - D.Y), bəlkə də əsər məhz bizim tariximizlə bağlı olduğundan mövzu onlara aydın olmadı. Xüsusən, “Müsyö Jordan və Dərviş Məstəli Şah” tamaşasındakı aktyor ifasına heyran oldular. Bu tələbələrlə çox işlər görmək olar.”

*Mehriban Zəki, əslində, bu günə kimi heç kimdən eşitmədiyim, amma adım kimi əmin olduğum fikri səsləndirdi: “Biz Stanislavski “sistemi”ni bilmirik. Bizdə hər şey var, bircə bu “BİLMİRİK!” çatışmırdı... sehirli “bilmirik!..” Hansı ki, bilgəliyə (oxu: peşəkarlığa) gedən yolun lap başlanğıcıdır. Bir də ki, yuxarıdakı o “köhnə məktəb” sözünü mən “məktəbsizlik” sözüylə əvəz edərdim.*

*Söbətimiz davam edir, amma Bella xanımla. Xahiş etmişəm ki, son illər universitetimizdə formalaşmış “qostrol ənənəsi”nin əhəmiyyətini peşəkar təhsil işçisi kimi xarakterizə etsin.*

Bella Məmmədbəyova: “Hər qastroldan sonra mən tələbələrdə o inkişafa doğru meyillənməni görürəm. Bilirsiz, fərqli mədəniyyətlər uşaqlar üçün düşüncə arealını genişləndirir. Başqa sənət mühitləriylə təmas dünya görüşlərini artırır ki, bu da bir sənətçi üçün çox önəmlidir. İkincisi, onlar üçün meyarlar dəyişir, yeni mətləblər aydınlaşır, hədəfləri müəyyənləşir. Təbii ki, söhbət sənətini sevən tələbələrdən gedir. Qayıdırlar, dayanmaq istəmirlər, işləmək istəyirlər. Ona görə hər vəchlə istəyirəm ki, onlar xaricə çıxsınlar. Biz bu gün tələbəni təkcə Azərbaycan çərçivəsi üçün yox, daha geniş areal üçün hazırlamalıyıq. Tələbələrin əlaqələrini genişləndirməliyik. Məsələn, keçən ilki festivalda iştirakından sonra Corc Qafarova Moskvadan film təklifi gəldi. Sadəcə, o, hərbi xidmətdə olduğundan bu təklifi dəyərləndirə bilmədi, bu il tələbəmiz Ziya Ağaya QİTİSdə təhsil almasıyla bağlı təkliflər oldu. İndi çox dəvətlər gəlir və biz bunu imkanımız daxilində dəyərləndirməyə çalışacağıq.



Bir də bayaq Mehriban xanıma müqayisəylə bağlı bir sual verdiz. Deməli, Dənizlidəki festival 33-cü dəfə idi keçirilirdi və 15000 tamaşaçısı var idi. Tamaşalarda yerlərin yarısı iştirakçılar üçün idi, yarısına isə simvolik qiymət - 1 lirə- qoyub satırdılar. Mən bilet üçün insanların necə növbəyə durduğunu gördüm. Baxın bir fərqimiz də burdur - bizim tamaşaçımız yoxdur!”

*Estafeti müəllimlərdən alıb tələbələrə verirəm, düzünü desəm, əsas maraq obyektim onlardır. Maraqlıdır, iştirak etdikləri festivallar onlar üçün hansı səhifələri açdı, düşüncələrində müəyyən bir peripetiyaya səbəb oldumu?.. Oralardan özləri və mənsub olduqları teatr mühiti üçün nə qoparıb, nə “çırpışdırıb” gətirdilər buralara?..*

**Fidan:** “Şəxsən mənə burada - Səda Tədris Teatrında rola “girmək” olduqca çətin idi. Komplekslərim var idi. Amma Moskvada sanki tamam başqa adam idim, tamam başqa bir enerjiylə oynadım. Bilmirəm o enerjini tamaşaçıdan aldım, ya mühitdən”.

Fidandan sualıma cavab ala bilmirəm, amma verdiyi cavabdan bu nəticəni əxz edirəm: sənətçi üçün ən önəmli olan azadlıqdır. Əgər aktyor (oxu: aktrisa) səhnəyə çıxanda düşünürsə ki, YaHU, mən bu mizanı necə edim ki, zalın sol küncündəki əmim oğlu görməsin və ya filan filmə çəkilsəm, görəsən, kəndimizdə nə deyərlər və s. deməli, o cismən sənətdə olsa da, ruhən, yəni “psixe” olaraq, hələ də kəndlərindən çıxmayıb. Görünür, Fidan rusların səhnəsində azadlığını tapıb... bir neçə dəqiqəlik də olsa.

**Mirsənan:** “Energetika” deyilən bir şey var də... mənfi və müsbət enerji. Bizim tamaşaçıda bir xasiyyət var ki, həmişə tamaşaya mənfi rəylə gəlirlər. Rusiya tamaşaçısı isə tamamilə fərqli enerjiyə malikdir, hansı ki, səhnədə sənə mane olmur”.

Tələbə yoldaşlarım söhbəti başqa yana aparıb, özlərini bir neçə dəqiqəlik SƏNƏTKAR kimi hiss etmək üçün tamaşaçıdan gileylənirlər, energetikadan dəm vururlar. Amma mənə bu gərək deyil, mənə onların içindəki özünütənqid lazımdır. Ona görə də həmlə edirəm: “Dostlar, gəlin belə danışaq... indi tamaşaçının çatışmazlıqlarını dedik. Rusiya seyrçisinin zövqünə və ENERGETİKAsına heç bir şübhəmiz yoxdur. Amma istəyirəm, bir az özümüzdən danışaq: biz və onlar... məsələn, biz və Moskva tələbələri”

**Elçin:** “Rus tələbələrə paxıllığım tutdu, sözün düzü. Çox çalışırdılar və çox həvəsliydilər. Amma o həvəsi yaradan müəyyən amillər var idi. Məsələn, keçən il bizdə Ceyhun (Dadaşov) müəllimlə Ruslan (İsmayılov) müəllim studiya yaratmışdılar. Müəyyən yaradıcı mühit formalaşmışdı. Belə mühit bizə daha həvəslə, daha sürətli işləməyə şərait yaradar. Tələbəni öz bacarıq və istedadıyla baş-başa buraxırlar ki, əvvəlcə özünü kəşf eləsin. Rol üzərində işdən əvvəl aktyor təbiətini üzə çıxaran daha yüngül məşğələlər keçmək lazım idi. Bizsə lap başdan rol üzərində işə başladıq və bu, çətin oldu”.

*Elçin olduqca önəmli mövzuya toxundu: STUDİYA! Bu gün Azərbaycan teatr məkanında bir dənə də olsun, studiya fəaliyyət göstərmir. Peşəkar teatrlar isə beş ildə heç beş nəfər gəncə iş vermir. Sual yaranır, onda bu “yeni teatr nəsli” harada və necə yetişəcək?!. Zatən, biz gənc nəsil peşəkar teatrlardan əlimizi üzmüşük. Fakt budur ki, bu gün gənc teatrçılar blokada vəziyyətindədir və universiteti bitirər-bitirməz bu blokadada itib batırlar, məhv olurlar.*

**Mətləb:** “Bizdə səbr yoxdur. Hər şeyə tez-bazar nail olmağa çalışırıq və çox tez də nail olduğumuzu düşünürük. Rusiyada gördüm uşaqları ki, adi bir elementi iki saat-üç saat məşq edirlər. Bizsə parçalanırıq - evə, işə, bufetə və s. Ona görə də təhsili tam qavraya bilmirik. Hələ ki özümdə o dissiplini yaratmağa çalışıram”.

*Uşaqların bayaqdan “enerji”, “həvəs” və s. sözlərlə ifadə etdikləri çatışmazlığın nədən ibarət olduğunu, deyəsən, bilirəm - HƏDƏFSİZLİK! Rusun balası o boyda əziyyətə ona görə qatlaşır ki, o boydana RUSİYA teatrında var ola bilsin. Bizim binəvalar isə Azərbaycan teatrından ümidlərini kəsiblər, yönəliblər seriallarımıza ki, orada da aktyor olmaq bir o qədər önəmli deyil, əsas “TƏBİİ” olmaqdır. Bir də müəllim, ustad faktoru çox önəmlidir. Gərəkdir müəllim öz intellekti, bacarıq və uğurlarıyla tələbəni öz ardıyca aparmağı bacarsın. İndi isə müəllimlərə sonuncu sualımı ünvanlayıram. İstəyirəm öyrənim ki, bütün bu festivallar, qostrollar bizim dünya teatr məkanına inteqrasiya üçün qarşımıza hansı vəzifələri qoyur?..*

**Bella Məmmədbəyova:** “Ən birinci hədəf dünyəvilik və beynəlxalq əlaqələrdir. Təhsil gərək universal olsun və beyləlxalq təcrübə mübadiləri üzərində qurulsun. Məsələn, çox istəyərəm ki, “Erasmus+” proqramıyla gedib Polşa universitetlərində təhsil alsınlar. Bununçün da biz mütləq dil baryerini aradan qaldırmalıyıq. Tələbələrimiz xarici dil bilmirlər. Keçən il Rusiyada magistr tələbəmiz Hilal Dəmirova qalıb oxumağı təklif elədilər, məhz dil baryerinə görə alınmadı. Yəqin ki, hər şeydən öncə bu maneələri dəf etmək vəzifəsi durur qarşımızda”.

**Mehriban Zəki:** “Bu gün teatr təhsilimizin inteqrasiyası üçün gərək biz müəllimlər inteqrasiya edək. İndi söhbət əsnasında uşaqlar danışdılar, mən özüm üçün müəyyən ölçüləri götürdüm. Bilmirəm, bu gün təhsilimizi dünya maştabına daşıya biləcək müəllimlərimiz varmı... dəqiq demək mümkün deyil”.

Dağlar Yusif: “Yoxdur, Mehriban xanım! Heç ehtimal da eləməyin...”

Mehriban Zəki: “Hə, baxmayaraq ki, mən özüm də müəllim olmağa cəhd edirəm!”

**Bella Məmmədbəyova:** “Amma o gənclərimiz var”.

**Mehriban Zəki:** “Bəli Gənclər var və bu gün o gənclərin gedib yurd dışında oxuyub gəlmələri bizi teatr məkanına daşıya bilər. Mən bunu arzulayıram, bunu istəyirəm. Bu gün hətta mən özüm buna çox böyük ehtiyac duyuram!”

Beləliklə, ADMİU-ya kiçicik səyahətimiz yekunlaşdı. Sonda bir şeyi demək istəyirəm ki, burada festivallar haqda bütün deyilənlər bizim üçün “deyilənə görə” xarakteri daşıyıb. Gərçi, ADMİU-nun 20-25 nəfərlik heyəti arasında, heç olmasa, bircə nəfər teatrşünas olsaydı, bu reportaj daha canlı, daha fərqli ola bilərdi. Amma görünür, Azərbaycan teatrı SABAHı teatrşünassız açmaq istəyir... lakin SABAH açılanda yenə biz teatrşünaslar hamıdan bir addım öndə olacağıq... həmişəki kimi...



